**Rauf Abdullayev:** "Yubiley konserti Qara Qarayev sənətinə layiq tərzdə keçdi. Orkestrimiz istedadlı və bacarıqlı dirijor Elşad Bağırovun idarəsi ilə "İkinci simfoniya"nı və "Klassik süita"nı gözəl tərzdə təqdim etdi. Konsertin ikinci hissəsində isə mahir violin ifaçısı Elvin Qəniyevin solo ifada olmaqla "Skripka və orkestr üçün konsert"ini və "Qoyya" simfoniyasını məmnuniyyətlə dinlədik. Konsertdə ifa olunan bütün əsərlər mürəkkəbliyi ilə fərqləndiyi üçün onlara yalnız əlamətdar günlərdə müraciət edilir. "Qoyya" simfoniyası isə 1986-cı ildən bəri ilk dəfə idi geniş dinləyici kütləsi üçün çalınırdı..."





**Zemfira Haqverdiyeva-Qafarova:** Qara Qarayevin violin konserti müasir musiqinin çox çətin konsertlərindən biridir. İlk dəfə olaraq keçmiş sovet musiqisində bəstəkar yeni texniki üslublardan istifadə edib. Konsertin ilk ifaçısı Koqan olub. Sonralar bu əsəri müxtəlif ifaçıların təqdimatında eşitmişəm. Düzü, anlaşılması çətin olan əsərlərdəndir. Amma gənc Elvin elə təqdim etdi ki, mən əsərdəki kədəri, insan dramını çox asan dərk elədim. Çox möhtəşəm özünəməxsusluğu ilə fərqlənən ifa idi. Onun ifası deyə bilərəm ki, bütün eşitdiyim ifalardan mənə xoş gəldi. Texniki cəhətdən əsərin fəlsəfi ideyasını o gənc yaşı ilə daxildən hiss etdi. Bu da təbiidir, çünki böyük ustad Sərvər Qəniyevin nəvəsidir.

**Elvin Qəniyev:** "Qara Qarayev ən sevimli bəstəkarlarımdandır, onun musiqisini ifa etdikcə hər bir notu hiss edir və həm bu möhtəşəmliyi, həm də babam Sərvər Qəniyevlə əlaqəni duyuram. Axı məhz babam həmin əsərlərin ilk ifaçısı kimi tanınır. Qara müəllimin həyat və yaradıcılığı haqqında babam çox söhbətlər edib... Mən ilk dəfə 7 yaşında ikən "Yeddi gözəl" baletindən olan "Vals"ı Moskvada uşaqların beynəlxalq müsabiqəsində ifa edib birinci mükafatı qazanmışam. O müsabiqədən sonra müəllimlər də, məktəb yoldaşlarım da məndən Qarayevin əsərlərinin notlarını istəyirdilər...



Böyük sənətkarın 100 illik yubiley konsertində çıxış etmək mənim üçün böyük şərəf və böyük məsuliyyətdir. Dünyanın bir çox səhnələrində təqdim etdiyim sevimli bəstəkarımın dahiyanə musiqisini bu gün onun vətənində ifa edirəm. Məndən illər öncə bu əsəri ünlü musiqiçilərin ifası məsuliyyətimi daha da artırır. Emosiyalarım o dərəcəyə çatdı ki, Qara Qarayevin zalda olması hissi qəlbimə hakim kəsildi. Sanki mən çalırdım, o isə dinləyirdi. Konsertdən sonra Fərəc Qarayevdən, Arif Məlikovdan, Rauf Abdullayevdən və digər hörmətli musiqiçilərimizdən ruhlandırıcı sözlər eşitmək isə ən böyük mükafatım oldu..."

**Ceyran Mahmudova:** "Qara Qarayevin 100 illik yubileyi münasibətilə filarmoniyada baş tutan konsert çox uğurlu keçdi. Bir musiqişünas kimi bu konsertdən böyük zövq aldım. Musiqi axşamının ikinci hissəsi məndə daha dərin təəssürat doğurdu – bacarıqlı və gənc violin ifaçısı Elvin Qəniyevin yaradıcılığını izlədiyimə görə bu dəfə də onun virtuozluğunun özünəsadiqliyini müşahidə etdim. Həmçinin "Qoyya" simfoniyasının yüksək səviyyədə ifasını da qeyd etməmək mümkün deyil..."



İlham Fətəliyev